**UOT 94(479.242)**

# NAXÇIVAN DİYARINDA ATA KULTU VƏ ATANIN YERİ

***Səbuhi Xudaverdi oğlu Həsənov***
***AMEA-nın Naxçıvan Bölməsi***
***hsebuhi.13@gmail.com***

**Açar sözlər:** *Naxçıvan, ata, kult, inanc, din.*

*Türk inancının əsas amillərindən birini təşkil edən ata kultu qədim dövrlərdən günümüzə qədər müəyyən dəyişikliklərə uğrayaraq davam etmişdir. Naxçıvan ərazisində aparılan qazıntılardan ataya inanc, ona hörmət lap qədim dövrlərdən bərqərar olduğu məlum olur. Xüsusən də qəbir abidələri bu qənaətə gəlməyə kömək edir. Daha sonrakı dövrlərdə inanc sistemində baş verən dəyişikliklər ata kultuna təsir etərək onun başqa formaya düşməsinə səbəb olmuşdur. Əvvəllər ata, daha sonrakı dövrlərdə dədə, pir adlanması bu dəyişikliklərin nəticəsi idi. Bütün bunlar türklərin zəngin inanca, dünya görüşünə malik olduğunu göstərir.*

## КУЛЬТ ОТЦА И ОТЦА МЕСТО В НАХЧЫВАНСКОЙ ОБЛАСТИ

***Сабухи Гасанов***

***Ключевые слова:*** *Нахчыван, отец, культ, вера, религия*

*Культ отец, один из основных факторов турецкой веры, продолжали развиваться с древних времен до наших дней. Из раскопок, проведенных на территории Нахчывана, известно, что вера отца уважалась с древних времен. В частности, кладбищенские памятники помогают прийти к такому выводу. Более поздние изменения в системе верований повлияли на родовой клан и привели его в другую форму. В прошлом имя отца, позднее в тот период, было результатом этих изменений. Все это показывает, что турки имеют богатую веру и мировоззрение.*

# IN TERRITORY OF NAKHCHIVAN PATERNAL CULT AND POSITION OF FATHER

***Sabuhi Hasanov***

**Key words:** *Nakhchivan, father, cult, religion*

*Ancestral clans, one of the main factors of Turkish belief, have continued to evolve from ancient times to the present day. From the excavations carried out in the, it is known that faith in the father is respected from ancient times. In particular, the graveyard monuments help to reach this conclusion. Later changes in the belief system affected the ancestral clan and caused it to fall into another form. Previously, the name of the father, later in the future, was the result of these changes. All this shows that the Turks have rich faith and world view.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı çox zəngin tarixə malikdir. Naxçıvan əzəldən türkün yurdu, türkün məskəni olmuşdur. Məhz buna görədir ki, Naxçıvan tarixini ümumtürk mədəniyyətindən ayrı araşdırmaq, onu tədqiq etmək mümkün deyildir. Naxçıvan tarixi Türk dünyasının ümumi tarixinin ayrılmaz tərkib hissəsidir.

Naxçıvan tarixini tədqiq edərkən naxçıvanlıların tarixən dini təsəvvürlərini və inanc sistemlərini öyrənmək mühüm əhəmiyyətə malikdir. İnanc sistemini müasir dövrümüzdə müşahidələr əsasında öyrəniriksə, qədim dövrlərdə olmuş inanc sistemlərini də arxeoloji qazıntılar və yazılı qaynaqlar əsasında öyrənirik. Türk dünyasında totem və kultlara inanc daima mövcud olmuşdur. Bunlardan biri də ata kultudur.

Əcdadlar kultuna inam daima olmuşdur. Bu kultun tarixi insanın mədəniyyət qurmağa başladığı zamanlardan bəri paralel olaraq inkişaf etmişdir. İstənilən xalqın inanclar sistemini araşdırılmasında əcdadlar kultunun tədqiqi vacib məsələlərdəndir. Əcdadlar kultunun ən əsas tərkib hissələrindən biri də ata kultudur. Məşhur fransız tarixçi K. Armtronq “Tanrıların tarixi” adlı əsərində qeyd edir ki, bütün qədim dinlərdə olduğu kimi babillər də mədəni uğurlarını, öz yaşam tərzlərini mifioloji atalarının yaratdığını təsəvvür etmiş, onları tanrılara aid etmişlər [6, s.19]. Bütün xalqların tarixində ilki yaradan bir ata olmuşdur. Bu daha sonra ata kultunun özəyini təşkil edən “yaradıcı ata” obrazının meydana gəlməsinə səbəb olmuşdur. Buna görə də, hər bir etnosda daima ata kultu mövcud olmuşdur. Bu amil türk xalqları üçün də səciyyəvi xüsusiyyət daşıyır.

Naxçıvanda aparılmış arxeoloji qazıntılar nəticəsində ata kultunu izləmək mümkün olmuşdur. Belə ki, O.Həbibullayev, V.Əliyev, V.Baxşəliyev, A.Seyidov, Z.Rzayev, B.İbrahimli və başqa arxeoloqların Naxçıvan ərazisində apardıqları qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələrinə əsasən ata kultu haqqında müəyyən elmi nəticələrə gəlmək olar. Eneolit dövründə ata kultu artıq formalaşmışdır. Evin döşəməsində dəfn olunan kişi qəbirləri bu nəticəyə gəlməyə imkan verir. Eneolit dövürünün qəbir abidələrini tədqiq edərkən insanların bu dünya və o biri dünyanı idarə edən varlıqlara inandıqları aydın olur [1, s.34; 2, s.275-289]. Atanın evin döşəməsində dəf olunması onun ölümdən sonrada həmin evdə yaşayanları qoruması, onları himayə etməsi və lazım gəldikcə kömək etməsi inancından meydana gələ bilər. Qeyd edək ki, günümüzdə hələ də "ata ocağı" adlandırılan evlər ən çox həmin evi tikən atanın xatirəsini yad edir.

Müasir dövrümüzdə işlətdiyimiz atalar sözləri ata kultunun tədqiqi üçün xüsusi əhəmiyyətə malikdir. Tarixən sınanmış və müəyyən təcrübələr əsasında yaranmış bu hikmətli sözlərin atalar sözləri adlandırılmasının əsas səbəblərindən biri ataya olan hörmətdən irəli gəlməsidir. Qədim türklərdə ataya hörmət edilir, sözlərinə qulaq verilir və təcrübələrinə güvənirdilər. Ailə iyeraxasiyasında ata, baba ailədə gücü, qoruyuculuğu ilə sayın çoxalması və böyüməsi təmin edirdi. Dövlət səviyyəsində isə ata rolunu kağan yerinə yetirərdi [9, s.57]. Məhz bu amillərə əsasən "ata evin dirəyidir" kimi hikmətli atalar sözləri yaranmışdır. Atanın cəmiyyətdə mərkəzi yerdə durması, ona istiqamət verən və bir yerdə tutaraq, ailə təşkilatının əsas hərəkətverici qüvvəsi olmasına səbəb olmuşdur. Ata ailənin başlanğıcı olmaqla birlikdə həm də, dövlətin yaradıcısı da ola bilərdi. Buna görə də, dastanlarımızda və tarixi şəxsiyyətlərin həyatında cəmiyyətin yeni bir mərhələyə qədəm qoyması da atanın oğul qarşısında məğlub olmasından keçirdi. Türk dastanlarında çox zaman rastlaşdığımız bu epizodlar, eyni zamanda tarixi hadisələr zamanı da olmuşdur. Atanın məğlub olması, artıq onun qurduğu cəmiyyətin ləğv olunması, oğlu tərəfindən yeni cəmiyyətin qurulması çox zaman mifikləşərək zamanəmizə qədər gəlib çatmışıdır. Bu cür köklü dəyişikliklər çox zaman siyasi məsələlərlə bağlı baş versə də, xalqın dini etiqadının dəyişilməsi zamanı da bu prosesləri izləmək mümkün olur.

Dədə Qorqud süjeti də dastan və rəvayətlərdə təsvir edilən ata kultunda xüsusi yerlərdən birini tutmuşdur. Dədə Qorqudun tarixinin daha qədim olması da İslamdan öncəki ata kultuna dəlalət edir. İslama qədərki dünyada olan Dədə Qorqud türklərin İslamın qəbulundan sonra tarixi-siyasi mühitdə uyğunlaşma cəhdləri keçir. "Ata" statusundan "Dədə" statusuna keçir [3, s, 58]. Bütün bu dəyişmələr İslam dininin qəbulundan sonra türk dünyasında inanc sistemində baş verən dəyişikliklərin nəticəsi idi. Ata statusunun ləğv edilməsi ilə ata

kultundan olan dəyişilmə daha sonra pirlərin meydana gəlməsinə zəmin yaratmışdır.

Naxçıvanda yerləşən pirlərin çoxu da ata kultuyla bağlıdır. Ata kultu dedikdə sadəcə nəslin yaradıcısı sayılan ata yox, eyni zamanda fəaliyyəti ilə də müqəddəs sayılan kimlər nəzərdə tutulur. Bu cür pirlərin qorunması və həyətindəki ota belə zərər verilməməsinə xüsusi fikir verilir. İnsanlar oralara gedərək dua edir, parça bağlayırlar. Əlbət də ki, pir inancı türklərin qədim inanclarından yaranmaqdadır. Türk xalqları İslam dininin qəbulundan sonra da bu inanclarını dəyişilmiş şəkildə saxladılar. Buna görə də, pirlərin böyük əhəmiyyəti tarixilik baxımından İslamdan əvvəlki dövrlərə aiddir. Daha sonra yaradılan ziyarətgahlar, imamzadələr, türbələr isə islam dininin təsiri ilə meydana gəlmişdir.

Türk xalqları mifioloji atalarına hər zaman hörmət etmiş, onu daima müqəddəs saymışdılar. Buna görə də, ilin müəyyən günlərində bütün tayfalar bir yerə yığılar və geniş mərasimlər təşkil edərək, atalarının ruhlarına qurban kəsərdilər. Bu qurbanvermə mərasimləri son dərəcə ciddi təşkil olunardı, hətta ataların ruhları "*narahat*" olar deyə, ora tayfanın bəzi nümayəndələrinin iştirakına yol verməzdilər. Bu özünü əsasən onda göstərirdi ki, inanc sistemində xüsusi mövqeyə sahib olan şamanların Tanrıya və ataların ruhuna qurban kəsilən mərasimlərdə iştirakına yol verməzdilər [7, s. 23]. Buna səbəb isə şamanların bəzilərinin ruhlarla əlaqə saxlaması idi. Qeyd edək ki, türk inancında şamanlar ağ və qara şamanlara bölünür. Ağ şamanlar yaxşı ruhlarla, qara şamanlar isə şər qüvvələrlə əlaqə qururlar. Ancaq mərasim zamanında hansısa bir şamanın iştirakı yolverilməz sayılırdı. Bu cür mərasimlər əsasən Xaqan tərəfindən icra olunurdu. Onlar bəzən şamanlardan kömək alsalar da, əsla onları müqəddəs mərasimlərə buraxmazdılar.

Ataların ruhuna qurban kəsilməsi və ya onlarla bağlı hər hansı bir hadisəni xüsusi mərasimlərlə yaşadırlar. Bildiyimiz kimi, Naxçıvan ərazisində də xüsusən Kültəpə, Şahtaxtı, Sarıdərə və başqa nekropollarda tədqiq olunan qəbirlərdə ölənlərlə birlikdə heyvan qurban kəsib, dəfn ediblər. Fikrimizcə, bütün bunlar ataların ruhunu razı salmaq üçün edilən təşəbbüslərdən idi. Bu qəbir abidələrində aşkarlanan maraqlı cəhətlərdən biri də xırdabuynuzlu heyvanların və öküzün qurban edilərək dəfn edilməsidir. Dünya tarixində xüsusi mövqeyə sahib olan hunlar atalarının ruhlarına öküz və qoyun qurban edirdilər [8, s.191]. Göründüyü kimi, Naxçıvanda və digər türk xalqlarında ataların ruhuna qurban kəsilməsində ortaq ünsürlər olmuşdur.

Ata kultuna inancın digər xüsusiyyətlərindən biri də onun dəfn edildiyi yerlərin müqəddəs sayılmasıdır. Naxçıvanda və digər türk xalqalarının yaşadığı ərazilərdə yayılan ocaq, pir və türbələr də atalara hörmət olaraq yaradılmış inam yerləridir. Bu cür müqəddəs sayılan yerlərin təmiz saxlanılmasına, onların qorunmasına xalq tərəfindən xüsusi diqqət verilirdi. Tədqiqatçı H.Q. Qədirzadə

qeyd edir ki, tarixən seçkinlərin dəfn edildikləri ərazilərin müqəddəs sayılması ilə sonrakı dövrlərdə bir sıra tanınmış şəxsiyyətlər, müqəddəs insanların da həmin ərazilərdə dəfn edilərlər [4, s. 22]. Naxçıvan şəhərində İmamzadənin və Hz. Nuh peyğəmbərin türbəsinin yanında şəhər qəbirstanlığının olması buna bir misaldır. Dünyasını dəyişən insanların müqəddəs yerlərin yanında dəfn edilməsi, ölən kimsənin ruhunun orada rahatlıq tapması inancından irəli gəlirdi. Çox zaman mərhum ölüm ayağında dəfn edilmək istədiyi yeri yaxınlarına vəsiyyət edir. Bu cür yerlərdə çox zaman onların inandıqları müqəddəs yerlər, ya da özündən əvvəl dünyadan köçmüş ailə yaxınlarının məzarlarının yanı olur.

Müasir dövrümüzdə də ölənlərin ruhlarını yad etmək üçün qara bayramlarda, xüsusən də axır çərşənbədə yad etmək üçün qəbir üstünə gedirlər. Bunu xalq qübur ziyarəti, ata, baba günü, arafa adlandırır [5, s.28]. Həmin gün, yəni Novruz bayramında onları yad edərək, dua edərək onların ruhlarının şad olmasına səbəb olduqlarına inanırlar.

Novruz bayramında xüsusi ilə qəbirləri ziyarət etmənin səbəbi ilin axırı olması idisə, digər bir səbəb isə sözsüz ki, ata kultu ilə bağlıdır. Türkiyəli tədqiqatçı Yaşar Kalafat belə nəticəyə gəlmişdir ki, Novruz bayramını qeyd etmək səbəbi Ulu Tanrı və atalarımızın ruhlarının qarı, buzu əritməsidir [10, s.93].

Göründüyü kimi, qədim dövrlərdən başlayaraq naxçıvanlılar da digər türk xalqları kimi daima ata kultuna inanmış, onlara hörmət etmişlər. Onlar ilin müəyyən günləri, bayramlarda ”ata ocağına” yığılar, ölüm günlərində isə o ocaqda ehsan bişirərək paylayarlar. Daima onların ruhlarının həmin evdə olduğuna inanar və o evə xüsusi ehtiram göstərərlər. Ata kultunun, əsasən, əcdadlar kultunun bir hissəsi olmasına baxmayaraq, daha sonra tamamilə ayrıca kulta çevrildi. Qədim zamanlardan qalma olan bu inanc dövrümüzdə də davam etdiyi kimi, gələcək nəsillərə də ötürüləcəkdir. Ata kultu insanın ailəsinə, yuvasına, evinə bağlığın əsas elementidir. Məhz buna görə də, mühafizəkar ailələrdə atalar daha çox güc simvolu kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti (e.ə VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı: Elm, 2004, 320 səh.
2. Seyidov A. Naxçıvan e.ə.VII-II minilliklərdə. Bakı, Elm, 2003, 339 səh.
3. Qasımlı M. Ata Qorquddan Dədə Qorquda gedən yol/ AMEA Naxçıvan Bölməsi xəbərlər (İctimai-humanitar elmlər seriyası. Xüsusi buraxılış). N:1, Naxçıvan: Tusi, 2016, cild 12, s. 54-59.

4. Qədirzadə Q. Nuh babadan Türk ataya gedən yol (rəvayətlər, baxışlar, tarixi həqiqətlət), Naxçıvan: Əcəmi Nəşriyyat Poliqrafiya birliyi, 2011, 192 səh.
5. Orucov A. Xalq Təqvimi: adətlər, inanclar, mərasimlər (Naxçıvan materialları əsasında), Bakı: Elm və təhsil, 2013, 200 səh.
6. Armstrong K. Tanrının tarihi. (tərcümə edən Oktay Özel), Ankara: Ayrac yayınevi, 1998, 533 səh.
7. Bayat F. Ana hatlarıyla türk şamanlığı. İstanbul: Ötüken yayınevi, 2006, 212 səh.
8. Jan-Paul R. Eskiçağ və Orta Çağda Altay türkərində ölüm. Tərcümə edən Aykut Kazancıgil, İstanbul: Kabalcı yayın evi, 1999, 352 səh.
9. Kalafat Y. Doğu Anadoluda Eski türk inanclarının izləri. Ankara: Sistem Ofisel Matbaacılık, 1990, 120 səh.
10. Kalafat Y. Altaylardan Anadoluya Kamizm, Şamanizm. İstanbul: Yeditepe yayınevi, 2004, 154 səh.